# MALDARLIQDA ÇARPAZLAŞDIRMA VƏ HİBRİDLƏŞDİRMƏNİN MƏHSULDARLIĞA TƏSİR SƏMƏRƏLƏLİYİ

***Elnur HEYDƏROV***
*Azərbaycan Kooperasiya Universitetinin aspirantı*

Maldarlıqda aparılan dərin elmi tədqiqatların əsas məqsədi əhalinin ərzaq məhsullarına olan tələbatın ödənilməsi və bazar iqtisadiyyatına uyğun olaraq maya dəyəri ucuz başa gələn genetik resurslarından istifadə olunmasıdır. Bu baxımdan qarşıya qoyulmuş tədqiqat işinin aktuallığı onunla bağlıdır ki, Respublikamızda mövcud olan və çoxluq təşkil olunan Qafqaz qonuru, malın ət məhsuldarlığını qiymətləndirilməsi və yüksəldilməsi yolları aşkarlanır.

Hələ 1990-cı illərdə Qafqaz qonuru ümum qaramalın baş sayının 25%-ə qədərini təşkil etdiyi halda Qara ala cinsi həmin dövürlərdə 33%-dən yuxarı çoxluq təşkil edirdi. Hazırda Respublikamızda Qafqaz qonuru mövcud qaramalın 40%-dən çoxunu təşkil edir. Bu onunla bağlıdır ki, gətirilmiş cinslər Qar-ala holştin, Qonur Karpat, Qonur Latviya, Lebedin və sairə cinslər ekstrimal şəraitdə döza bilmədikləri üçün öz genetik potensialını göstərə bilmir. Mühütə uyğunlaşma zəifləyir və depresiyaya uğrayırlar.

Dünya maldarlığın inkişaf dinamikasından aydın olur ki, son 50-ildə yaradılmış və mühütə dözümlü heyvanlar çarpazlaşdırma və hibridləşdirmə nəticəsində əldə olunmuşdur. Eyni zamanda həmin heyvanların dözümlüyü, uzunömürlüyü ilə yanaşı onların ət məhsulldarlığı ətin yüksək qidalılığı ilə fərqlənmişlər. Buna əsas səbəb genetik təhlili onunla bağlıdır ki, müxtəlif genlərin qarşılıqlı təsir formasında (komplementar təsir) yəni fərdlərin yaranmasında keyfiyyətli əlamətlərin biruzə çıxması ilə əlaqədardır. Ona görə də (fərd) valideynlərdən aldığı müsbət bioloji və təsərrüfat ünsiyyətli əlamətlərin cəmlənməsi, onlardan genetik strukturunda balanslaşmanın xeyirli faktorlarla toplanması aydınlaşır. Qeyd edildiyi kimi elmi nəzəri əsaslar və alimlərin dərin tədqiqatları (E.Çerkayev, İ.Çerkaşenka, Z.Verdiyev, S.Abbasov, M.Əliyev, Y.Xankişiyev, V.Bayramov və başqaları) qayrşıya qoyduğumuz elmi mövzunun aparılması vacibliyi məqsədyönlü və aktuallığını bir daha təsdiq edir. Ona görə də mövzuya uyğun tədqiqatın aparılması üçün göstərilən qruplar üzrə tədqiqatın aparılmasını qarşıya məqsəd qoyduq.

***Sxem I.***

***Tədqiqatda istifadə olunan qrupların qan dərəcəsi***

| *№* | *Qruplar* | | *Nəsil* | *Heyvan baş sayı* | *Cinsi* | *Qan dərəcəsi* |
|---|---|---|---|---|---|---|
| 1 | Qafqaz qonuru | Nəzarət | | 10 | erkək | Qaf-qon Qaf-qa |
| 2 | Aberdin anqus x Qafqaz qonuru | Təcrübə | I | 10 | erkək | Aberdin Anqus Qaf-qa |
| 3 | Hollovey x Qafqaz qonuru | Təcrübə | I | 10 | erkək | Hollovey Qaf-qon |
| 4 | Kubarebu x Qafqaz qonuru | Təcrübə | I | 10 | erkək | Kuba – Zebu Qaf-qon |

Cədvəldən göründüyü kimi nəzarət qrupu kimi Qafqaz qonur malı götürülmüşdür.

Tədqiqat obyekti kimi Xanlar rayonu dövlət ətlik müəssisəsidir. Burada ətlik müəssisə olduğu üçün ətlik cinsi törədicilərindən Kuba zebusu, Aberdin anqus, Hollovey cinslərindən istifadə olunmuşdur. Tədqiqatın aktuallığı ilə elmi yeniliyi ondan ibarətdir ki, müxtəlif ətlik cinslərin bir təsərrüfatda Qafqaz qonuru ilə hansı müsbət çarpazlaşmanı biruzə verilməsi aydınlaşır. Bu məqsəd üçün biz aşağıdakı tapşırıqların yerinə yetirilməsini öz metodikamızda göstərmişik.

Alınmış məlez və hibridlərə eyni yemləmə və bəslənmə şəraiti tədbiq edilir. Hansı təcrübə qrupun 1 kq çəki artımına çox yem vahidin və ya enerji mübadiləsinin (meqajoul) sərf olunması təhlil edilir. Həmin qrup heyvanların doğulduqda 3.6.9.12.15.18 aylıqda canlı kütlə mütləq, nisbi artım göstəriciləri cədvəllərlə biometrik təhlil əsasında aparılır. Həmin aylarda heyvanların bədən ölçüləri (cidov hündürlüyü, döş eni, döş dərinliyi, bel hündürlüyü, çanaq hündürlüyü, gövdə uzunluğu, gövdənin çən uzunluğu, döş qucumu, çanaq uzunluğu, Oma arası en, oturacaq arası eni, incik qucumu və s.) götürülür və həmin ölçülərə əsasən indekslər (ətlik, uzun ayaqlılıq, sümüklülük, döş-şanad, əzələlik, kütləlik və s) tapılır. Qeyd olunan ölçülərin tapılması xüsusi metodika əsasında (S.A.Abbasov 1994) yerinə yetirilir.

Həmin aylarda nəzarət və təcrübə qrupu heyvanların Hemotoloji göstəriciləri (hemoqlobin, eritrosit, leykositlər və s), öyrənilir və müqayisəli təhlil edilir. Çünki məlum olduğu kimi hər bir orqanizmin böyümə və inkişafı qanda olan eritrositin miqdarı və fəallığı ilə (İ.Çerkaşenka 1990, D.Levantin 1913, S.Abbasov. 2001) əlaqəlidir. Ona görə də doğulduqdan 18 aylıq dövrə kimi hemotoloji göstəricilərin təhlili böyümə xüsusiyyətlərin inkişafı üçün vacibdir. Nəzarət və təcrübə qrup heyvanlar 18 aylıq kəsimə (3-baş) verildikdə həmin heyvanların ət məhsuldarlığı cəmdək çəkisi, cəmdək çıxarı, kəsim çəkisi, kəsim çıxarı, budun, əzələlin, indeksi və s. ölçülər təhlil edilir. Cəmdəyin ölçülməsi ətin dequstasiya üçün götürülməsi xüsusi metodika əsasında (Moskva - 1981) yerinə yetirilir. Məhsuldarlıq göstəricisi olan dəri məhsulu onun xüsusiyyətləri tam açıqlığı ilə təhlil edilir.

Bütün qeyd edilən əlamətlərin təhlilində ətin qidalılığı, kəsimdən sonra ətdə baş verən dəyişikliklik, ətin dözümlüyü onun ekspert xüsusiyyətləri xüsusi cədvəllərdə göstərilir. Bu parametrlərlə yanaşı yekunda iqtisadi səmərəliyi verilir və təhlil edilir.

Dünya ədəbiyyatlarında göstərildiyi kimi mövcud qaramalın ət məhsuldarlığına çarpazlaşdırma və hibridləşmənin təsir xüsusiyyətləri və onun qiymətləndirilməsi elmi əsaslarla nəticələndirilir və xüsusi tədqiqatın yekunu təsərrüfat üçün faydalı təkliflər verilir.

Məhs bu baxımdan tədqiqat işin elmi əsaslara söykənən respublikamızın təsərrüfatlarında yerinə yetirilməsi günün tələbidir. Eyni zamanda tədqiqatın son nəticəsində hansı qrupun yüksək iqtisadi səmərəli olması tam aydınlaşacaqdır. Ona görə də mövzu elmi-nəzəri əsaslara söykənmiş yüksək aktuallığa malik problemin həll olunması qarşıya məqsəd qoyulmuşdur.

## ƏDƏBİYYAT

1. M.M.Əliyev – Ərzaq məhsullarının əmtəşünaslığı – Gəncə 2000
2. S.A.Abbasov – Azərbaycan zebuçuluq. Gəncə 1994.
3. S.A.Abbasov – «Müxtəlif qaramal cinslərin Kuba zebuzu ilə çarpazlaşdırılması səmərəliliyi» Gəncə – 2004
4. Q.Q.Abdullayev k/t heyvanların yetişdirilməsi Bakı – 1996
5. Y.Xankişiyev – Ərzaq malları əmtəşünaslığı – Gəncə 2006